*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri № 3, 2025*
*Səh. 449-453*
*ISSN 2224-9257*

https://doi.org/10.62837/2025.3.449

**RƏQSANƏ QALIB QIZI SÜLEYMAN**
**E-mail: raxanasuleyman@gmail.com**
**Xəzər Universiteti**
**Dillər və ədəbiyyatlar kafedrası, magistr**
**Ünvan: Bakı, M.Gəncəvi küç. 11.**

# ƏDƏBİ TƏNQİD VƏ ŞƏRHÇİLİK: BƏDİİ ƏSƏRDƏ PEŞƏKAR TƏNQİD VƏ OXUCU TƏNQİDİ TEXNİKASI

**Annotasiya.** Sənətkarlıq məsələləri heç də həmişə geniş, ardıcıl, dərindən, müasir və klassik ədəbiyyat təcrübəsinə əsaslanaraq müzakirə olunmur. Bəzən çox böyük, yaxud kiçik məsələləri belə bayağılaşdıran subyektivizm onları xırda duyğulara, yaxud da əsassızlıq və tutarsızlıqla tənqidi sıradanlaşdırmağa meyilli məqalələr peyda olur. Bədii yaradıcılıqda ümumiləşdirmənin yolları və formaları, tipikləşdirilmə, obrazın canlılığı, ifadəliliyi kimi vacib məsələlər haqqında yaxşı yazılara az-az rast gəlinir. İntellektual dərinlik, ciddilik və obyektivlik bizim tənqidimiz üçün vacib keyfiyyətlərdir. Təəssüf ki, tənqiddə də bəzən subyektivizm, şəxsi simpatiya və antipatiya özünü göstərir. Bu və digər baxımdan da, tənqid ədəbiyyatda mürəkkəb bir yaradıcı sahəsidir. Xüsusilə, texnoloji çağda sosial platformaların sayı-hesabı durmadan artır. Təbii haldır ki, yazıçılar, tənqidçilər, nəzəriyyəçilər və oxucular bu şəbəkələrin daimi istifadəçisinə çevrilir. Belə olan halda, peşəkar və qeyri-peşəkar tənqidi bir-birindən ayırmaq məsələsi meydana çıxır.

**Əsas hissə.** Bədii mətnlər daha çox subyektiv yüklü olur və fərdi yaddaşın, eləcə də, təəssüratların bir parçası olaraq təqdim edilir. Təbii ki, bədii əsərin təhlilini dəyərləndirmək də ilkin halda subyektivdir: tənqidçinin fikrinə olan gözləntilər oxucu və müəllifin fikrinə olan gözləntilərdən daha çoxdur. Bir sözlə, mütəxəsis rəyi. Oxucu və müəllifin (yazıçının), eyni zamanda, bədii əsərlərin incələnməsində bu qədər marağının olduğu yerdə, bəs peşəkar tənqidin meyarları haradadır və onlarla elmi-tənqidi yanaşmanın əsas fərqi nədədir? Bədii mətnlərin şərhi, onların fərdi təəssüratlarla başa düşülməsi hər bir tənqidçi, yazıçı, oxucu tərəfindən fərdi şəkildə şərh edilməsinə gətirib çıxarır.

Bədii yaradıcılıqda və ədəbiyyatın elmi inkişafına bir-birindən artıq töhfələr verən yazıçı, ədəbiyyatşünas Elçin sovet ədəbi tənqidi ənənələrini son dərəcə diqqətlə təhlil edir və sovet ədəbi tənqidçilərinin, yəni yuxarıda qeyd etdiyimiz məhz peşəkar baxışın xeyli yanlış mexanizmlərini bu cür sıralamışdır: *1) Ədəbi tənqiddə həyat həqiqətləri deyərkən yalnız kolxoz həyatından bəhs edilməsi, 2) Elmi-nəzəri səviyyənin aşağı olması və bəzi tənqidçilərin sənətkarlıq sirlərindən bixəbərliyi, 3)Mövzu aktuallığı məsələsinin düzgün başa düşülməməsi və avtoritetlər qarşısında güzəştə getmək, 4)Obyektivliyin, prinsipiallığın və ədalətli hökmün çatışmazlığı, 5)*

*Kəmiyyət və keyfiyyətin təzadı, 6) Məqalələrin özlərinin formaca qənaətbəxş olmamağı, 7) Bir sıra məqalələrin dilinin nöqsanlı olmağı və onların emosianal təsirinin olmaması.* [4, 207-210] Müəllif, həmçinin, müasirlik, bədii dil, xarakter və sənətkarlıq məqamlarını da ədəbi təqidlə qarşı-qarşıya qoyaraq aydınlaşdırmışdır.

Oxucu tənqidinin (şərhinin) bir sıra yanıldığı amillər haqqında ədəbiyyat esselərində söz açan intellektual ədəbiyyatın dünyada ən parlaq simalarından biri romançı, semiotik, fəlsəfə və ədəbiyyat tənqidçisi Umberto Ekonun fikirləri maraqlıdır: "Müasir dövrdə rast gəlinən və təhlükəli hesab edilə biləcək bir növ ifrat tənqidi yanaşmaya əsasən, oxucular ədəbi əsərlərlə öz daxili impulslarının, özlərində hakim ola bilmədikləri arzularının diktə etdiyi kimi sərbəst şəkildə rəftar edə bilərlər. Lakin bu yanaşma doğru deyil. Ədəbi əsərlərin oxunması bizdən həm şərh azadlığı çərçivəsində saygı, həm də sadiqlik təcrübəsi tələb edir."[ 3, 17] Ədəbi mətnlər, bəli, bizi şərh azadlığına çağırır, çünki onlar müxtəlif oxuma səviyyələrindən yanaşmağa imkan verən çoxqatlı bir diskurs təklif edir və bizi dilin və həyatın çoxmənalılığı ilə qarşı-qarşıya qoyurlar. Amma bu oyunda irəliləyə bilmək, yəni mətni layiqli şəkildə dərk etmək üçün hər nəslin həmin əsərləri fərqli bucaqlardan oxuduğunu nəzərə almaq vacibdir.

Ədəbi şərh azadlığı sərhədsiz interpretasiya haqqı deyildir, bu azadlıq məsuliyyət və mətndəki niyyətə hörmətlə müşayiət olunmalıdır. Vahid mətn mədəniyyətinin öyrənilməsi, başa düşülməsi bu sahədə xüsusi elmi hazırlıq və düşüncə sistemi ilə sıx əlaqədədir. Ekonun yuxarıda sitat verdiyimiz fikirlərini romançı, akademik Kamal Abdulla belə açır: "Hər bir əsərdə ikili kodlaşma nəzərdə tutulur. Birinci halda, oxucu əsərin üslubuna, daha doğrusu, üslub qatmaqarışıqlığına, müəllifin ona ötürdüyü mətndənkənar bədii informasiyaya fikir vermədən, yalnız əsərin üst süjet qatı ilə maraqlanır. İkinci halda isə oxucu müəlliflə sanki həmfikir olur, onun mətndəki ən incə "əməllərinə" diqqət yetirir, onlardan zövq alır, mətndənkənar müəllif ötürmələri onun üçün sadəcə süjet xəttindən daha maraqlıdır və yaxud onun qədər qiymətlidir." [6]

Oxucunun müəllifə (əsərə) münasibətlərindən öz kitabında daha geniş şəkildə bəhs edən akademik Kamal Abdulla əsl oxucunun (*oxuyan deyil, oxucu*) əsərə və müəllifə həqiqi inancı olan oxucu kimi qiymətləndirir. Akademik qeyd edir ki, həmin oxucu "... sadəcə oxuyan deyil, oxucudur". Lakin elə ədəbi əsərlər vardır ki, insanın şüuru qəbul edə bilməyəcəyi qədər "inanılmazdır". Bu barədə müəllif qeyd edir: "Digər tərəfdən, onu da etiraf edək ki, elə nəsr əsərləri var ki, (götürək "Don Kixot" əsərini) oradakı təsviri reallıq kimi qəbul etməyənlər də onu ləzzətlə, hətta bəlkə də, mənəvi ehtiyacla hiss edə-edə oxuyurlar. Belələri oxucudurlar, yoxsa oxuyan? Bizim yanaşmadan çıxış etsək, belə bir bədbin nəticəyə gəlib çıxarıq ki, Servantesin heç zaman oxucusu olmayıb və çox güman ki, olmayacaq da. Çünki Don Kixotun bəzi müasir həmvətənlərini nəzərə almasaq, çətin elə bir nəfər tapmaq mümkün olsun ki, "Don Kixot"da təsvir edilən hadisələrin real təməlinə inansın".

[1,64] Müəllifin (K.A.) fikrindən bu nəticəyə gələ bilərik ki, burada hadisələr o qədər bütövləşib ki, Oxucu Əsərə (Don Kixota) yox, Servantesin (Müəllifin) ustalığına inanır.

Klassik ədəbi tənqidimizə enəndə mövzu ilə bağlı Azərbaycanın böyük ədəbiyyat və mədəniyyət mütəfəkkiri, görkəmli yazıçı, dramaturq, filosof və ictimai xadim M.F.Axundzadənin oxucu fərqini də izah etdiyi məqalələrdən birində deyilir: "*Xanəndeyi-ami* ancaq buna xoşhal olur ki, yarımçıq əfsanənin riştəsi yenə ələ düşdü və canı naməfhum təsəvvürat və təəqqülatdan qurtardı. Dəxi xəbəri olmur ki, Mollayi-Ruminin mənzuru topladığı sözdə bitdi və *arif xanəndəyə* mətləb hali oldu." (kursiv – R.S.) [2, 156] Götürdüyümüz sitat M.F.Axundzadənin "Mollayi-Ruminin və onun təsnifinin babında" məqaləsindəndir. Görkəmli mütəfəkkir bu məqalədə dövrün məşhur təsəvvüf şairi Mövlanə Cəlaləddin Ruminin məsnəvisi çox dəqiqliklə və analitik kimi tənqidə çəkir. Axundzadə deyir ki, Ruminin məsnəvisində xalq əfsanə və rəvayətlərindən götürülən tülkü və çaqqal obrazları mətndə tamamilə gizli mətləb daşıyır. Bu isə sadəcə arif oxucuya bəlli olur. *"Xanendeyi-ami",* yəni adi oxucu bu mətləbdən bixəbərdir.

Bu gün sosial şəbəkələrdə, bədii əsərlər haqqında fikirlər hər müəllifin öz hesabından, yəni fərdi dairələrdən birbaşa çatdırıldığına görə, bəzən hər hansı bir əsər haqqında kitab və jurnalara müraciət etmədən müxtəlif rəyləri tapmaq əlçatan olmuşdur. Bu məsələ bizim üçün mütəxəsis və qeyri-peşəkar rəyini aydınlaşdırmaq baxımından ciddi maraq yaradır. Professor, görkəmli ədəbiyyat tənqidçisi Rəhim Əliyev qeyd edir: "Xüsusi elmi hazırlığı olmayan adam ədəbi mətni, əsəri oxuyanda onun təəssüratları fərdi və subyektivdir. Bu təəssürat ən çox həmin adamın yaddaşından, şəxsi təcrübəsindən, problem və komplekslərindən asılıdır. Ona görə, xalis fərdi akt kimi götürdükdə ədəbi mətnin qavrayışı məzmunca subyektivdir və ciddi sosial məzmundan uzaqdır. Xalis fərdi akt kimi bədii qavrayış elmi və sosial məzmundan kənardır." [5, 22]

## Nəticə

Yazıçılarımızın, tənqidçilərimizin, nəzəriyyəçilərimizin birgə, ahəngdar işi ilə ədəbiyyatımızda yeni yüksəlişə nail olmaq, yeni, dəyərli əsərlər yaratmaq imkanı hər bir mütəxəsisin öz işinə olduqca peşəkarlıqla yanaşmasından asılıdır. Ədəbi tənqidə, ədəbiyyatşünaslığın metodoloji-nəzəri problemlərinin həllinə kütləvi maraq getdikcə rəqəmsallaşan dövrün yeniliklərindəndir və bu sahədə ən ağır yük də ədəbi prosesimizin hər addımında özü ilə birgə "apardığı" peşəkar ədəbi tənqidin üzərindədir. Ədəbi tənqidin rolu, ədəbi tənqiddə yaradıcılıq, ədəbi tənqidin özünəməxsusluğu, mövzusu, tənqidi mühakimədə mütaliə standartı, bədii əsərin şərhində ideya-estetik amillərin inteqrasiyası, tənqiddə üslub və janr rəngarəngliyi özünə əsas meyar götürməyən tənqidçini fikrini əsas hesab etmək doğru deyildir.

Əlbəttə, oxucu rəyini bilmək əhəmiyyətli və maraqlıdır. Lakin ciddi yaradıcı yazarlıqda olduqca ciddi məsələ, oxucu tənqidi ilə müəllif öz təbiiliyindən kənara çıxması və müəyyən dərəcədə kommersiya məqsədli əsərlərə yönəlməsi, ən azından bu cəlbedici məqamdan qaçına bilməməsi məsələsidir. Hazırkı dövrdə Azərbaycan ədəbiyyatında oxucu şərhinin (yaxud rəyi və tənqidinin) səviyyəsi peşəkar ədəbi tənqidlə üz-üzə gələcək durumda deyildir. Yəni, əksərən oxucular bu cür yazılarla – sosial media paylaşımları ilə müəllifi tənqid adı ilə bir növ öz istəklərinə tabe etməyə can atırlar. Bu anlamda, məhz hazırkı məqamda oxucu rəyinin ədəbi tənqidi əvəz etməsi yalnız məyusluğa səbəb ola bilər və ədəbiyyatımızın gələcək sinxron inkişafı ilə bağlı narahatlıq yaradar.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Abdullayev K. Müəllif-əsər-oxucu: Bakı: Yazıçı, 1985.-154 s.
2. Axundzadə M.F. Əsərləri 3 cilddə: [Kəmalüddövlə məktubları; Fəlsəfi, ədəbi-tənqidi və tarixi məqalələr. Tənqid risaləsi]/ Bakı: Şərq-Qərb, 2005.- C.II.- 374 s.
3. Eco, Umberto. Edebiyata dair: Can Yayınları, 2017.-400 s.
4. Elçin. Tənqid və nəsr. Bakı: Günəş, 1999.- 216 s.
5. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Qanun, 2012.-463 s.
6. Kulis.az/xeber/kamal-abdulla/media/iki-don-kixot-yaxud-muellifin-oxucusu-ve-metnin-oxucusu-kamal-abdulla-58892

**Rəqsanə Qalib qızı Süleyman**

**Ədəbi tənqiddə üçlü yanaşma: professional tənqid, yazıçı və oxucu tənqidi**

**Xülasə.**

Ədəbi tənqid ədəbiyyat tarixinə və nəzəriyyəyə aid bütün klassik traktatları, bir qayda olaraq, müasir ədəbiyyatdakı faktlar və mübahisələrlə bağlı araşdırır. Ədəbi mətnlərin şərhi problemi ümumən vahid mətn mədəniyyətini bütün adamlar üçün fərdi qaydada öyrənilməsi zərurətindən doğur. Lakin ədəbi mətnlər digər mətnlərdən, xüsusilə, elmi mətnlərdən prinsipial şəkildə fərqlənir: ədəbi mətn dünyanın fərdi yaddaş prizmasından görünən obrazının bir parçasıdır, epizodu və ya mənzərəsidir. Ona görə, ədəbi mətnlər daha subyektiv yüklüdür və onların necə başa düşülməsi və deməli, şərhi məsələsi də həmişə fərqli olmuşdur.

**Açar sözlər:** tənqid, ədəbi tənqid, müqayisəli tənqid, nəsr, oxucu təniqdi

**Ragsana Galib Suleyman**

**“Literary Criticism and Interpretation: Professional Criticism and Reader Critique Techniques in a Literary Work.”**

**Summary**

Literary criticism traditionally explores all classical treatises related to the

history and theory of literature, typically examining facts and controversies in modern literature. The problem of interpreting literary texts generally arises from the necessity to study the unified textual culture as an individual process for all people. However, literary texts fundamentally differ from other texts, particularly scientific texts: a literary text is a part of an image of the world seen through the prism of individual memory, an episode or a scene. Therefore, literary texts are more subjective, and the way they are understood—and consequently, interpreted—has always been a matter of variation.

**Keywords:** criticism, literary criticism, comparative criticism, prose, reader critique

**РАКСАНА ГАЛИБ СУЛЕЙМАН**

**“ЛИТЕРАТУРНАЯ КРИТИКА И ИНТЕРПРЕТАЦИЯ: ПРОФЕССИОНАЛЬНАЯ КРИТИКА И ТЕХНИКА ЧИТАТЕЛЬСКОЙ КРИТИКИ В ХУДОЖЕСТВЕННОМ ПРОИЗВЕДЕНИИ.”**

**РЕЗЮМЕ**

Литературная критика традиционно исследует все классические трактаты, относящиеся к истории и теории литературы, как правило, анализируя факты и споры в современной литературе. Проблема интерпретации литературных текстов возникает, как правило, из необходимости изучать единую текстовую культуру в индивидуальном порядке для каждого человека. Однако литературные тексты принципиально отличаются от других текстов, особенно от научных: литературный текст является частью образа мира, видимого через призму индивидуальной памяти, эпизодом или пейзажем. Поэтому литературные тексты более субъективны, и их восприятие и, следовательно, интерпретация всегда были различными.

**Ключевые слова:** Критика, литературная критика, сравнительная критика, проза, читательская критика.

**Rəyçi: f.e.d.. professor Bədirxan Əhmədov**